# Azərbaycan Prezidentinin Pasxa təbriki pravoslav icmasına çatdırılıb

Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə dövlət müşaviri Kamal Abdullayev Prezident İlham Əliyevin Pasxa bayramı münasibətilə imzaladığı təbrik məktubunu Pus Pravoslav icmasının üzvlərinin Bakıdakı Jen Mironosits pravoslav kafedral kilsəsində keçirdikləri dini mərasimdə oxuyub. O, təbrik məktubunu Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr İşeinə təqdim edib.

"Gözəl bahar günlərində qeyd olunan Pasxa bayramı insanlarda yüksək əhvali-ruhiyyə və nikbinlik yaradan, şəfqət və mərhəmət hisslərini artıran, cəmiyyətdə xeyirxahlıq və həmrəylik prinsiplərinin bərqərar olmasına xidmət edən əlamətdar günlərdəndir. Bu bayram müxtəlif dini konfessiyaların əsrlər boyu qarşılıqlı etimad və əmin-amanlıq şəraitində dinc yanaşı yaşadığı Azərbaycanda geniş surətdə qeyd edilir.

Azərbaycanda yaşayan xristian icmasının nümayəndələri ölkəmizin ictimai-siyasi, iqtisadi, mədəni-mənəvi həyatında fəal iştirak edərək onun hərtərəfli inkişafı işinə öz layiqli töhfələrini verir. Qoy bu nurlu bayram hər birinizə xoş ovqat, ailələrinizə firavanlıq və sevinc gətirsin".

Prezident İlham Əliyevin onlara ünvanladığı bu səmimi sözləri Azərbaycan pravoslavlarına həssas və qayğıkeş münasibət kimi dəyərləndirən icma üzvləri dövlət başçısına dərin ehtiramlarını ifadə edib, Prezidentə çətin və şərəfli işində uğurlar, möhkəm cansağlığı arzulayıblar.

***AZƏRTAC***